# Zəfər tarixinin xronologiyası




## 29 sentyabr 2020-ci il.

**Vətən müharibəsi getdikcə şiddətli xarakter alıb.**

Həmin gün "Rossiya-1" telekanalında yayımlanan "60 dəqiqə" proqramında Azərbaycan–Ermənistan təmas xəttində baş verən son hadisələrə həsr olunan verilişdə Prezident İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan tərəfindən aparıcıların sualları cavablandırılıb. Eyni zamanda, sentyabrın 29-da dövlətimizin başçısının Almaniya Kansleri Angela Merkel ilə telefon söhbəti olub.

Vətən müharibəsinin üçüncü günündə Azərbaycanın Baş Naziri ilə Türkiyənin Vitse-prezidenti arasında gedən telefon söhbətində Ermənistanın işğalçı siyasəti pislənilib.

Azərbaycan Milli Məclisi və Pakistan Senatının sədrləri arasında telefon danışığında da düşmən ölkənin təxribatlarının qarşısının qətiyyətlə alındığı bildirilib.

Sentyabrın 29-da Milli Məclisin Sədri, həmçinin ATƏT Parlament Assambleyasının Prezidenti ilə cəbhədəki vəziyyəti müzakirə edib və Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şentopa məktub ünvanlayıb.

***

Vətən müharibəsinin üçüncü günündə Prezident İlham Əliyev "Rossiya-1" telekanalında yayımlanan "60 dəqiqə" proqramında Ermənistanın baş naziri Nikol Paşinyanı canlı yayımda bir daha ifşa edib.

Verilişdə aparıcının sualına cavabında dövlətimizin başçısı cəbhədə gərgin vəziyyət yarandığını, Ermənistanın sentyabrın 27-də səhər başladığı hərbi təxribat nəticəsində Azərbaycanın yaşayış məntəqələrini və döyüş mövqelərini şiddətli artilleriya atəşinə məruz qoyduğu diqqətə çatdırılıb: "Bu təcavüz nəticəsində Azərbaycanın 11 dinc sakini, o cümlədən, 2 uşaq həlak olub, hərbi qulluqçular arasında da həlak olanlar var. Biz təcavüzkara adekvat cavab verməyə və beləliklə, öz xalqımızı, öz adamlarımızı və torpağımızı müdafiə etməyə məcbur idik. Beləliklə, artıq üçüncü sutkadır ki, şiddətli döyüşlər gedir, bu döyüşlər nəticəsində Azərbaycan Ordusu bir sıra yaşayış məntəqələrini işğaldan azad edib, həmçinin müxtəlif istiqamətlərdə strateji yüksəklikləri tutub. Bu gün vəziyyət elədir ki, fəal döyüş əməliyyatları aparılır".

Aparıcının bu müharibədə Türkiyənin rolu barədə sualına isə dövlətimizin başçısı belə cavab verib: "Türkiyənin rolu regionda sabitləşdirici xarakter daşıyır. Türkiyə bizə qardaş ölkə və bizim müttəfiqimizdir. Ermənistanın Azərbaycana hücum etməsini dünya ictimaiyyətinin bildiyi ilk saatdan etibarən Türkiyə dövlət başçısı və digər rəhbərlər səviyyəsində birmənalı olaraq Azərbaycanı dəstəklədiyini, beynəlxalq hüququ dəstəklədiyini bildirib. Ona görə ki, Ermənistan 30 ilə yaxın müddətdə Azərbaycan ərazisini işğalda saxlamaqla beynəlxalq hüququ kobud şəkildə pozur. Türkiyənin rolu, əslində, məhz bundan ibarətdir, başqa heç bir rolu yoxdur.

*(ardı 5-ci səhifədə)*

*(əvvəli 1-ci səhifədə)*

# Zəfər tarixinin xronologiyası



Türkiyə bizə mənəvi dəstək göstərir və biz Türkiyə rəhbərliyinə, Türkiyə Prezidentinə və türk xalqına bizimlə həmrəy olduğuna və bizi dəstəklədiklərinə görə təşəkkür edirik…".

Azərbaycan Prezidenti "Rossiya-1" telekanalında yayımlanan "60 dəqiqə" proqramında 30 ilə yaxın bir dövrdə nüfuzlu dövlətlər və beynəlxalq təşkilatlar tərəfindən Ermənistanın işğal siyasətinə biganə münasibət bəslənildiyini də vurğulayıb. Bildirib ki, əslində belə olmamalı idi. Bu cür beynəlxalq cinayətə, işğal faktına görə təcavüzkara yeri göstərilməli idi. Amma təəssüf ki, heç bir tədbir görülməyib…

Həqiqətən də, bu cür ədalətsiz yanaşmanın nəticəsində Vətən müharibəsi ərəfəsində Ermənistan-Azərbaycan arasında qarşıduma daha da güclənmişdi, işğalçı tərəfindən ardıcıl şəkildə təxribatlar törədilməyə başlanmışdı. Əlbəttə, burada Ermənistanın yeni hakimiyyəti, Paşinyan rejimi müstəsna rol oynayırdı. "Soros çevrilişi" nəticəsində hakimiyyətə gələn Paşinyan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində sağlam düşüncə və xoş məram nümayiş etdirmək əvəzinə, məkrli siyasət yürütməyə, eskalasiya prosesinin, necə deyərlər, canlandırılmasına üstünlük verirdi. O, işğal edilmiş ərazilərə tez-tez səfər edərək, "Qarabağ Ermənistandır və nöqtə" şüarını səsləndirirdi. Ermənistanın müdafiə naziri isə "ərazilər müqabilində sülh" formulundan imtina etdiyini vurğulayır və "yeni ərazilər uğrunda yeni müharibə" məzmunlu yeni hərbi konsepsiya irəli sürürdü.

Nikol Paşinyan növbəti çirkin əməlini isə ötən il sentyabrın 27-də reallaşdırdı, ölkəmizə qarşı təxribat törətdi, Azərbaycanın hərbi obyektləri və mülki əhalisini hədəfə aldı. Bu isə Vətən müharibəsinin başlamasına gətirib çıxardı.

Yeri gəlmişkən, burada bir məsələni də xatırlatmaq istərdik. Qardaş Türkiyənin Vətən müharibəsinin ilk günündən Azırbaycanla bağlı mənəvi dəstəyi sentabrın 29-da da davam etdi. Türkiyənin Xarici İşlər Naziri Mövlud Çavuşoğlu jurnalistlərə müsahibəsində Dağlıq Qarabağ münaqişəsinin təkcə bir yolunun mövcudluğunu– Ermənistanın Azərbaycan torpaqlarından çəkilməli olduğunu bildirdi.

Nazir diqqətə çatdırdı ki, bu münaqişədə Azərbaycan və Ermənistana münasibət eyni ola bilməz. Çünki Ermənistan təcavüzkar tərəfdir, Azərbaycanın ərazisinin bir hissəsini işğal edib. Döyüş meydanında və danışıqlar masasında Azərbaycanın yanındayıq. Bu məsələnin birdəfəlik həll olunmasını istəyirik.

Həmin gün Türkiyə Respublikasının Milli Müdafiə naziri Hulusi Akar da Ermənistanın cəbhə xəttində törətdiyi genişmiqyaslı təxribatlarla bağlı açıqlamasında bildirirdi: "Sülh yolu ilə həllə çağırış edənlər, "dərhal atəşkəs" istəyənlər, dialoqu indi xatırlayanlar, Azərbaycan ərazisinin 20 faizinin, o cümlədən, Dağlıq Qarabağ işğal altında olarkən, Xocalıda minlərlə günahsız insan vəhşicəsinə, haqq-hüquq tanımadan uşaq, qadın və yaşlı demədən qətlə yetirilərkən, 30 ildir milyonlarla insanın evindən, yurdundan didərgin düşərkən harada idilər? Türkiyə ilə Azərbaycan arasındakı münasibətlər "bir millət, iki dövlət" prinsipinə əsaslanır. Kədərdə də, sevincdə də daim bərabərik. Bu gün doğma torpaqlarını qorumaqda azərbaycanlı qardaşlarımızın yanındayıq. Ermənistan dərhal hücumları dayandırmalı, xaricdən gətirdiyi muzdluları, terrorçuları geri göndərməli və Azərbaycanın işğal edilmiş torpaqlarını boşaltmalıdır. Beləliklə, atəşkəs, sülh və sabitlik təmin edilməlidir".

Onu da deyək ki, Azərbaycan Ordusunun savaşın ilk günlərindən əldə etdiyi nailiyyətlər qardaş Türkiyədə böyük sevinclə qarşılandı. Türkiyənin Konya şəhərindən Ömər Ulusoy dövlətimizin başçısına yazırdı: "Hörmətli cənab Prezident, Sizi və xalqınızı salamlayaraq ölkənizin təcavüzə uğradığı bu günlərdə yanınızda olduğumu, düşmənə layiqli cavab verərək qələbə çalacağınıza əmin olduğumu bildirmək istəyirəm. Biz iki dövlət, bir millətik. Buna görə də ölkənizə gəlib qanımın son damlasına qədər vuruşmağa, qardaşlarıma dəstək verməyə hazıram. Qələbə sevincini bir yerdə yaşamaq arzusu ilə əmrinizi gözlədiyimi bildirirəm".

Türkiyənin Bursa şəhərindən Dəmirəl Hüseyinin məktubunu da həyacansız oxumaq mümkün deyildi: "Hörmətli cənab Prezident, Vətənin müdafiəsi və düşmənə cavab zərbəsi endirilməsi üçün verdiyiniz cəsur qərarla əlaqədar Sizi təbrik edirəm. Bir türk vətəndaşı olaraq qardaş Azərbaycanın bu çətin günündə ya ön cəbhədə, ya da arxa cəbhədə kömək etmək üçün Sizin əmrinizdəyəm. Biz türk olaraq birlikdə güclüyük və bunu ermənilərə sübut edəcəyik".

Vətən müharibəsinin ikinci günü Azərbaycan Ordusu əks-həmlə əməliyyatları ilə qəsbkara qarşı savaşı uğurla davam etdirirdi. Silahlı Qüvvələrimizin Ermənistan işğalçılarının hərbi təxribatlarının qarşısını uğurla alması, düşmənə sarsıdıcı zərbələr endirməklə cəbhədə əldə etdiyi qələbələr xalqımız tərəfindən böyük sevinc və ruh-yüksəkliyi ilə qarşılanırdı. Azərbaycan vətəndaşları, xaricdə yaşayan soydaşlarımız tərəfindən bu nailiyyətlərə görə Prezident, Ali Baş Komandan İlham Əliyevə çoxsaylı təbrik və minnətdarlıq məktubları yazılırdı.

Sentyabrın 29-da Müdafiə Nazirliyinin mətbuat xidmətinin yaydığı məlumatda isə bildirilirdi ki, işğal olunan torpaqlarımızın düşmən tapdağından azad edilməsi uğrunda ordumuzun apardığı qətiyyətli əks-hücum əməliyyatı davam edir. Ordumuzun şəxsi heyətinin döyüş əzmi və mənəvi-psixoloji vəziyyəti yüksəkdir. Döyüşlərdə iştirak edən hərbi qulluqçular əsl qəhrəmanlıq nümayiş etdirirlər. Azərbaycan Ordusunun apardığı döyüşlər nəticəsində cəbhənin müxtəlif istiqamətlərində Ermənistan qoşunlarının çoxlu sayda canlı qüvvəsi, hərbi obyektləri və döyüş texnikaları məhv edilib.

Müdafiə Nazirliyinin mətbuat xidmətinin mətbuat katibi polkovnik-leytenant Anar Eyvazov isə sentyabrın 29-da keçirilən brifinqdə bildirdi ki, Ermənistan silahlı qüvvələri cəbhənin Füzuli-Cəbrayıl və Ağdərə-Tərtər istiqamətlərində itirdikləri mövqeləri geri qaytarmaq üçün bir neçə dəfə əks-hücum cəhdi göstərsə də, Azərbaycan Ordusunun bu istiqamətlərdə yerləşən bölmələri uğurla müdafiə olunaraq, düşmənin bütün cəhdlərinin qarşısını dərhal alıb.

Yaşayış məntəqələrimizi atəşə tutan Ermənistan ordusunun bölmələrinə Ağdərə istiqamətində düşmənin Madagizdən hərəkət edən zirehli və avtomobil texnikasından ibarət qarışıq kolonu və onların hərəkətinə atəş dəstəyi verən artilleriya batareyası Azərbaycan Hərbi Hava Qüvvələrinin aviasiya vasitələri və cəbhənin bu istiqamətdə yerləşən qoşunlarımız tərəfindən məhv edilib.

Cəbhənin Füzuli-Cəbrayıl istiqamətində səhər saatlarında yerdəyişmə etmək istəyən düşmənin 1 tankı, 1 avtomobil texnikası və 10 nəfərədək şəxsi heyəti artilleriya zərbəsi ilə məhv edilib. Həmçinin Füzuli-Cəbrayıl istiqamətində Ermənistan qoşunlarının daha 4 tankı qəhrəman əsgərlərimiz tərəfindən sıradan çıxarılıb.

Polkovnik-leytenant Anar Eyvazov, eyni zamanda, Azərbaycan Ordusunun bölmələrinin düşməni ağır məğlubiyyətə uğratmaqda davam etdiyini, Xocavənd rayonu istiqamətindəki Ermənistan silahlı qüvvələri bölmələrinin "Uraqan" yaylım atəş sistemini sıradan çıxartdığını da vurğulayıb. O, eyni zamanda, səhər saatlarından etibarən Füzuli şəhərinin işğaldan azad olunması uğrunda Azərbaycan Ordusunun hücumu davam etdirdiyini də diqqətə çatdırıb.

Müharibənin üçüncü günü düşmənin itkiləri arasında Suriya və Yaxın Şərqin müxtəlif ölkələrindən gələn çoxlu sayda erməni əsilli muzdlu döyüşçülərin olduğu da aşkarlanıb. Ermənistan rəhbərliyi informasiya qadağasından istifadə edərək bu məlumatı həm öz cəmiyyətindən, həm də beynəlxalq ictimaiyyətdən gizlətməyə çalışsa da, buna müvəffəq ola bilməyib.

***V.BAYRAMOV, "Xalq qəzeti"***

Xalq qəzeti 2021.- 29 sentyabr.- S.1;5.